# Qarabağın dirçəldilməsi tarixi missiyadır



**Heç kəsin ağlına gəlməzdi ki, 27 il işğal altında qalan torpaqlarımız cəmi 44 günün içində azad olunsun. Lakin 2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-da yekunlaşan 44 günlük müharibə nəticəsində Ermənistan tərəfindən işğal olunmuş rayonlarımız, şəhər və qəsəbələrimiz düşmənlərdən təmizləndi. Əlbəttə, bu qələbə Ali Baş Komandanın böyük siyasi iradəsi, qətiyyətli qərarları, əsgər və zabitlərimizin ölçüyəgəlməz hünər və rəşadəti sayəsində əldə olundu. İndi qarşıda duran əsas məsələ azad etdiyimiz torpaqlarda hərbi cəhətdən möhkəmlənmək, düşmənin revanşist qüvvələrinə heç bir halda aman verməmək və ən əsası, dağıdılmış, vandalizmə məruz qalmış yurd yerlərimizi dirçəltmək, vaxtilə orada mövcud olmuş həyatı yenidən bərpa etməkdir. Bu prosesə isə artıq start verilib. Çünki bu proses Azərbaycan xalqının və dövlətinin tarixi missiyasıdır.**

Məlum olduğu kimi, Prezident İlham Əliyev müharibədən sonra işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərlər edir. Bu səfərlər çərçivəsində yeni inkişaf istiqamətləri, yeni vəzifələr qarşıya qoyulur. Həmçinin səfərdən sonra həmin ərazilərdə bərpa işlərinin aparılması ilə bağlı imzalanan sənədlər də bu torpaqların qısa müddətdə cəlbedici bir məkana çevriləcəyindən, yeni regional inkişaf proqramlarının icrasına başlanacağından xəbər verir.

Bölgənin inkişafının sürətləndirilməsi ilə bağlı bu il yanvarın 4-də "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında imzalanmış Prezident fərmanında da qeyd edilir ki, Azərbaycan xalqı Qarabağdakı ərazilərini böyük Zəfərlə 30 illik işğaldan azad edərək, öz tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoyub. Təxminən bir qərinəlik dövr ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş torpaqlarımızın yenidən dirçəldilməsi ölkənin siyasi-iqtisadi qüdrətinin güclənməsinin mühüm dayaqlarından biri olacaq.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, qarşıya qoyulan hədəfə nail olunmaqda dövlət qurumlarının və digər təşkilatların çoxşaxəli fəaliyyətinin sistemləşdirilməsi, eyni zamanda, idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında Azərbaycan Respublikası Prezidentinin 9 yanvar 2021-ci il tarixli fərmanı da ölkə rəhbərliyinin bu məsələyə xüsusi diqqətinin və siyasi iradəsinin göstəricisi kimi dəyərləndirilir.

Bu baxımdan, noyabrın 10-dan etibarən həmin bölgələrdə Azərbaycan dövləti adından suveren hakimiyyətin bütün funksiyalarını həyata keçirən orqan və strukturların yaradılması prosesinin sürətlənməsi, Qarabağın bərpası ilə bağlı 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulan 2,2 milyard manat məqsədli vəsaitin ayrılması, Şuşaya bu il istifadəyə verilməsi nəzərdə tutulan müasir standartlara uyğun yeni yolun çəkilişi, Füzuli rayonu ərazisində yeni beynəlxalq aeroportun tikintisi ilə bağlı qərar erməni vəhşilliyinə məruz qalmış və sözün həqiqi mənasında xarabazara çevrilmiş yurdumuzun yenidən çiçəklənməsi, orada normal həyata qayıdışı şərtləndirən əsas prinsiplərdən biri kimi qəbul olunmalıdır. Regionun təbii turizm potensialının yüksək olması da gələcəkdə bu bölgənin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın, Yaxın və Orta Şərqin istirahət-sağlamlıq məkanına çevriləcəyindən xəbər verir.

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də bununla bağlı bir sıra əhəmiyyətli məqamlar qeyd olunub. Belə ki, sözügedən strategiyada işğaldan azad edilən ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasının, orada bütün region üçün əhəmiyyətli yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanılması nəzərdə tutulur. Bu isə heç şübhəsiz ki, Azərbaycan iqtisadiyyatının daha da gücləndirilməsi, ölkədə sosial rifahın yüksəldilməsi üçün böyük perspektivlər vəd edir. Milli Prioritetlərdə işğaldan azad edilən ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışının təmin edilməsi, onların normal həyat üçün gərəkli olan infrastruktur və imkanların yaradılması əsas götürülür.

Prezident İlham Əliyevin aprelin 26-da işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonuna növbəti səfərində bir daha şahidi olduq ki, regionun dirçəldilməsində mühüm layihələrdən biri olan "Ağıllı kənd" pilot layihəsinin icrasına başlanıldı. Bu layihələr Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini də əhatə edir. Prezidentə məlumat verildi ki, bu layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə, ilk olaraq, tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaq. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

Dövlət başçısı bildirdi ki, bu, işğaldan azad edilmiş ərazilərdə ilk pilot layihədir: "Ona görə də, qeyd etmək istəyirəm ki, biz buna xüsusi diqqət yetiririk. Bu layihənin uğurlu icrası sözsüz ki, bizim əraziləri mümkün qədər tez bir zamanda dirçəltmək və bərpa etməklə bağlı güclü iradəmizi nümayiş etdirəcək".

Bundan əlavə, Zəngilan Hava Limanının təməlinin qoyulması, Zəngilan rayonu ərazisində uçuş-enmə zolağı üç kilometr olan, bütün növ təyyarələri qəbul edəcək beynəlxalq hava limanının inşa edilməsi, Füzuli Beynəlxalq Hava Limanından sonra azad edilmiş torpaqlarda ikinci hava limanının tikintisinə start verilməsi, Zəngilanın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrilməsi regionun inkişaf xəritəsini müəyyənləşdirəcək. Bu inkişaf xəritəsi Füzuli və Zəngilandan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı ilə bütün Qarabağ və Şərqi Zəngəzur zonasını Zəngilan da daxil olmaq şərtilə əhatə edəcək.

Cəbrayıl və Zəngilan rayonunda aparılan işlərlə tanış olmaq üçün bölgəyə səfər edən dövlətimizin başçısı sakinlərlə görüşü zamanı dedi: "Azərbaycan xalqının nə qədər güclü iradəsi və öz doğma torpağına bağlılığı var. Ermənilərin aləmində əsas ümidverici amil o idi ki, bizim camaat bu yerləri unudacaq, yaşlı camaat unudacaq, sonra vaxt keçəcək yaşlı camaat təbii olaraq həyatdan gedəcək. Gənclər, başqa şəraitdə böyüyüb başa çatan insanlar isə heç vaxt buraya qayıtmaq istəməyəcəklər. Bax, bu, onların böyük səhvi idi. Çünki biz qəlbində güclü Vətən sevgisi olan bir gənc nəsil tərbiyə edib yetişdirdik. Hətta buranı görməyən hər bir gənc bir arzu ilə yaşayıb ki, qayıtsın öz doğma torpağına, ədalət bərpa olunsun və artıq biz bunu görürük".

Azad edilən ərazilərimizin bərpası ilə bağlı bu gün həyata keçirilən fəaliyyət dağlıq və düzən Qarabağ bölgələrinə aid dövlət siyasətimizin yeni strategiyasının tərkib hissəsidir. Prezident tərəfindən bu istiqamətdə irəli sürülən taleyüklü tarixi təşəbbüslər bir daha təsdiqləyir ki, dövlətimiz azad edilmiş rayonlarımızla bağlı dəqiq və sistemli siyasət kursunu özünün əsas missiyasına çevirmişdir.

Əlbəttə, illərdir düşmən əlində olan bölgələrimizi azad görmək nə qədər sevindiricidirsə, orada əzəldən yaşamış azərbaycanlıların öz yurd yerlərinə bağlılığını, sevgisini görmək də insanı bir o qədər fərəhləndirir. Görülən işlər göstərir ki, heç də uzaq olmayan tarixdə Şuşa başda olmaqla bütün azad edilən rayonlarımızda həyat yenidən canlanacaq, torpaqlarımız öz əzəli sakinlərinin addım səslərini duyacaq.

***Anar TURAN,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 30 aprel.- S.4.